# Zəngilan tezliklə öz doğmalarını qarşılayacaq

***Azərbaycan torpaqları işğal altında olan dövrdə erməni faşizmi Qarabağ və Şərqi Zəngəzurda kənd və şəhərlərimizi, maddi-mədəni abidələrimizi yer üzündən silib. Bütün infrastrukturu, o cümlədən elektrik stansiyalarını, yarımstansiyaları, ötürücü xətləri düşmən dağıdaraq yerlə-yeksan edib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət belə qalmayıb, bütün enerji qurğuları sıradan çıxarılıb, düşmənin gücü çatıb apara bildiyi avadanlıqlar daşınıb, apara bilmədiyi isə ya partladılıb, ya da yandırılıb.***



Zəngilan rayonu da dəhşətli dağıntılara məruz qalıb. Burada işğalçı ölkənin hərbçilərinin yerləşdiyi bir neçə tikili nəzərə alınmasa, demək olar ki, salamat bir bina saxlanılmayıb, bütün yaşayış məntəqələri yerlə-yeksan edilib. Bununla da düşmən vəhşiliyini, əzazilliyini bir daha dünyaya göstərib, dağıdıcılığını, talançılığını ciddi şəkildə nəzərə çarpdırıb. Vətən müharibəsində ordumuzun şücaəti, misilsiz qəhrəmanlığı ilə xalqımız bu böyük bəladan – erməni faşizmindən xilas olunub.

Dövlətimizin başçısı çıxışlarının birində bu barədə ətraflı bəhs edərək, işğaldan təmizlənən torpaqlardakı yaşayış sahələrinin tamamilə dağılmış vəziyyətdə olduğunu bildirib: "Mənim azad olunmuş ərazilərə çoxsaylı səfərlərim olub və avtomobillə hərəkət edərkən 400-450 kilometr yolboyu yalnız dağıdılmış şəhər və kəndlər görünür. Son altı ay ərzində mənin azad olunmuş ərazilərə bir çox səfərlərim olub, şəhər və kəndlərin 90 faizi tamamilə dağıdılmış vəziyyətdədir. Həmin dağıntılar Birinci Qarabağ müharibəsi zamanı baş verməyib. Bu şəhərləri bombardman etməklə bu hala salmaq mümkün olmazdı. Bunlar sonrakı dönəmdə baş verib. Əvvəlcə, onlar bizim inşa etdiyimiz evlərin və məktəblərin tikinti materiallarını, dam örtüklərini və pəncərələrini oğurlayırdılar. Daha sonra isə onlar işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsini silməyə çalışırdılar - işğal altındakı torpaqlarda 60-dan artıq məscid dağıdılıb".

*(ardı 5-ci səhifədə)*

# Zəngilan tezliklə öz doğmalarını qarşılayacaq

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev Vətən müharibəsindən sonra ərazi bütövlüyümüzü şərtləndirən, işğalçılardan azad edilən torpaqlara – rayon və şəhərlərimizə mütəmadi səfərlər edir, barbarcasına dağıdılan ərazilərimizdə tikinti, abadlıq-quruculuq işlərinin gedişi ilə maraqlanır, müvafiq tapşırıqlarını verir. Dövlətimizin başçısının mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərək, adı çəkilən ərazidə görülən işlərin fonunda zəruri tövsiyələrini verməsi də bunun bariz ifadəsidir.

Azərbaycan Prezidenti qəbulda çıxış edərək, Zəngilan rayonunda bərpa-quruculuq layihələrinin sürətlə icra edildiyini bildirib və ermənilər tərəfindən dağıdılan bütün tarixi-dini abidələrimizin artıq bərpası işinə başlanıldığını, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə şəhər məscidinin faktiki olaraq yenidən qurulduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı daha sonra deyib: "Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq – təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf".

Azərbaycan Prezidenti Zəngilan rayonunda böyük infrastruktur layihələrinin sürətlə həyata keçirildiyini xatırladaraq, hazırda Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat xəttinin qurulduğunu, bu il Zəngilan Beynəlxalq Hava Limanının istismara veriləcəyini və bu aeroportun çox böyük funksiyalarının olacağını söyləyib. Bütün bunların təsadüfi xarakter daşımadığını vurğulayan ölkə rəhbəri gələcəkdə Zəngilanın beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi tanınacağının qarşıya mühüm vəzifə kimi qoyulduğunu xatırladıb. "Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması, əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır.

Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq",–deyə ölkə rəhbəri vurğulayıb. Əlbəttə, Zəngilanda yaradılan əhatəli nəqliyyat strukturu bu rayonun, eləcə də işğaldan azad edilən digər yaşayış sahələrimizin iqtisadi inkişafında önəmli rol oynayacaq, keçmiş məcburi köçkünlərin rahatlığına, sosial durumuna müsbət təsir göstərəcək.

Yeri gəlmişkən, bu məqamda bir məsələni də qeyd etmək istərdik. Dövlətimizin başçısı çıxışında vurğuladığı kimi, işğal dövründə Ermənistan rəhbərliyi bu ölkədən Cəbrayıla yol çəkmək istəyirdi. Həmin bu yol təbii ki, Zəngilandan keçməli idi. Azərbaycan Ordusunun Vətən müharibəsindəki parlaq qələbəsi ilə işğalçı dövlətin bu istəyi gerçəkləşmədi, bütün ümidləri məhv oldu. Hazırda isə düşmənin çəkmək istədiyi birzolaqlı kənd tipli bir yol əvəzinə qüdrətli Azərbaycan dövləti Horadizdən Zəngilana uzanan dörd və altızolaqlı magistralın inşasını həyata keçirir. Eyni zamanda, sovet vaxtından qalan mövcud yolun da əsaslı şəkildə təmir olunacağı nəzərdə tutulur. Ölkə rəhbəri çıxışında, həmçinin yeni çəkilən yolun daha əlverişli marşrutla keçəcəyini, məsafə baxımından daha əlverişli olacağını, bunun isə vətəndaşların daha rahat gediş-gəlişinə, beynəlxalq yükdaşıma məsələlərinin həllini tapacağına əlverişli şəraiti yaradacağını bildirib.



Şərqi Zəngəzurda yol infrastrukturunun yaradılması ilə bağlı nəzərdə tutulan layihələr təkcə bunlarla kifayətlənmir. Zəngilandan Qubadlıya və oradan da Laçına çoxzolaqlı yol çəkilir. Bu da bölgədəki rayonlar arasında birləşmənin təmin olunmasını şərtləndirir. Dəmir yoluna gəldikdə isə, hazırda Azərbaycanın sonuncu dəmir yolu infrastrukturu olan bu istiqamətdə stansiya Horadizdir. Buradan Ağbəndə gedən dəmir yolunun inşası artıq sürətlə aparılır və gələn il tam istismara veriləcəyi nəzərdə tutulur. Şübhəsiz ki, bu da həm vətəndaşların, həm də beynəlxalq yükgöndərənlərin çox əlverişli bir infrastrukturla təmin olunacaqlarını şərtləndirir.

Azərbaycan hazırda, eyni zamanda, ölkəmizin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirməyi qarşıya mühüm vəzifə kimi qoyub və bu nəqliyyat infrastrukturunun tam yeni nəqliyyat dəhlizi kimi fəaliyyət göstərəcəyi planlaşdırılıb.

Prezident İlham Əliyev çıxışında bununla bağlı deyib: "Nəzərə alsaq ki, son vaxtlar Azərbaycana Xəzər dənizinin Şərq hissəsindən çoxlu müraciətlər daxil olub. Azərbaycan ərazisindən yük göndərmək istəyənlərin həm sayı, həm də yüklərin həcmi artır, əlbəttə, Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq".

Dövlətimizin başçısı çıxışında keçmiş məcburi köçkünlərin məşğulluğunun təmin olunması ilə bağlı fikirlərini də bildirib. Ölkə rəhbəri bu il Ağalı kəndində yeni müəssisələrin yaradılmasının nəzərdə tutulduğunu, orada məskunlaşacaq sakinlər üçün həm kənd təsərrüfatında, həm də dövlət və özəl şirkətlər tərəfindən yaradılmış müəssisələrdə əlverişli şərait qurulacağını vurğulayıb, yüksək məhsuldarlıq üçün sudan nəzərdə tutulan qaydada əsasında istifadə edilməsi, azad olunmuş torpaqlarda əkin yerlərinin düzgün seçilməsi və orada aqrotexniki xidmətin göstərilməsinin qarşıya mühüm vəzifə kimi qoyulduğunu xatırladıb. Prezident İlham Əliyev çıxışında Zəngilan rayonunda keçən il Türkiyə Cümhuriyyətinin Prezidenti ilə birlikdə "DOST Aqropark" adlandırılan müəssisənin təməlini qoyduğunu da diqqətə çatdırıb. Xatırladaq ki, türk və azərbaycanlı sərmayədarların Zəngilanda həyata keçirəcəkləri adıçəkilən layihə üç mərhələdə icra olunacaq. Burada əvvəlcə inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə inteqrasiya olunan ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı avadanlığına tələbatını ödəyəcək. "Dost Aqropark"da "Ağıllı kənd təsərrüfatı" texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

Azərbaycan Prezidenti çıxışında erməni faşizminin işğal altında olan torpaqlarımızın ekologiyasına da böyük zərər vurduğunu, əlli-altmış min hektar meşə ilə örtülü sahəni tamamilə məhv etdiyini diqqətə çatdırıb: " Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır – vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur". Bu məqamla bağlı erməni faşizminin xarakterini ifadə edən bir faktı xatırlamamaq olmur. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Ağdam, Laçın və Kəlbəcər rayonlarında məskunlaşan ermənilərə əraziləri tərk etmək üçün 20 gün vaxt verildiyi müddət ərzində onlar azərbaycanlıların tikdikləri evləri tərk edərkən, həmin binaları, həyətlərdəki, yolların kənarlarındakı ağacları yandırıb, digər vandalizm aktları törədiblər.

Dövlətimizin başçısının çıxışında vurğulandığı kimi, ermənilərin törətdikləri bu vandal əməllər o zaman xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəsə onların hansı düşüncəyə sahiblik etdikləri aydın oldu. Qeyd edək ki, müharibədən dərhal sonra ekoloji layihələrin icrası da diqqət mərkəzində saxlanıldı. Bəsitçay təbiət qoruğunun bərpasına başlanıldı. Dövlətimizin başçısı tarixi Zəfərdən sonra ilk dəfə Zəngilanda olarkən, orada ağaclar əkdi.

Ölkə rəhbəri çıxışının sonunda Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunan Vahid Hacıyevə də zəruri tövsiyə və tapşırıqlarını verib: "Əlbəttə ki, siz mənim nümayəndəm kimi bütün bu məsələləri daha dərindən təhlil etməlisiniz və vurulmuş ziyanın ödənilməsi, məhkəmə və hüquq iddialarının qaldırılması ilə bağlı öz töhfənizi verməlisiniz. Əlbəttə, bu, əsas məsələlərdir, bu, ilkin mərhələdə görüləcək işlərdir, o cümlədən minatəmizləmə işləri. İndi bizim müvafiq qurumlarımız bu işlə məşğul olurlar. Əlbəttə ki, mənim yerlərdəki nümayəndələrim də burada fəal iştirak etməlidirlər, öz köməklərini göstərməlidirlər".

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 6 may.- S.1;5.